| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 18.06.2019 |
| QEYDİYYAT NÖMRƏSİ | 1268 |
| ADI | Dövlət qulluqçularının aylıq vəzifə maaşlarının müəyyən edilməsi və “Dövlət qulluqçularının aylıq vəzifə maaşının müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 13 mart tarixli 3787 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 30-06-2019, Nəşr nömrəsi: 06, Maddə nömrəsi: 1104) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 01.09.2019 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 010.000.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 30.06.2019 |

**Dövlət qulluqçularının aylıq vəzifə maaşlarının müəyyən edilməsi və "Dövlət qulluqçularının aylıq vəzifə maaşının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 13 mart tarixli 3787 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dövlət qulluqçularının sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını daha da artırmaq məqsədilə **qərara alıram:**

~~1. Azərbaycan Respublikasının dövlət orqanlarında (Azərbaycan Respublikasının xaricdə olan diplomatik nümayəndəlikləri, konsulluqları və digər orqanların nümayəndəlikləri istisna olmaqla) qulluq keçən dövlət qulluqçularının aylıq vəzifə maaşının minimum məbləği inzibati vəzifələr üçün - 410 manat, yardımçı vəzifələr üçün - 300 manat müəyyən edilsin.~~

~~2. Dövlət qulluqçularının aylıq vəzifə maaşları bu Sərəncam ilə təsdiq edilmiş 1 nömrəli, 2 nömrəli və 3 nömrəli Əlavələrə* uyğun müəyyən edilsin.~~

3. "Dövlət qulluqçularının aylıq vəzifə maaşının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 13 mart tarixli 3787 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, 3, maddə 51 1, 7 (1 kitab), maddə 1574, 11, maddə 2287; 2019, 3, maddə 462; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 1217 nömrəli Sərəncamı) 1-ci və 2-ci hissələri ləğv edilsin.

~~4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:~~

~~4.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;~~

~~4.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;~~

~~4.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;~~

~~4.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.~~

~~5. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.~~

~~6. Bu Sərəncam 2019-cu il sentyabrın 1-dən qüvvəyə minir.~~

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 18 iyun 2019-cu il
1268

---

*Əlavələr dərc edilmir.

-
-
-

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**


1. 1 iyul 2019-cu il tarixli **1308** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 7, maddə 1250)**
2. 28 avqust 2019-cu il tarixli **1400** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1440)**
3. 18 iyun 2020-ci il tarixli **2107** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 19 iyun 2020-ci il, 116, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 6, maddə 754)**
4. 30 aprel 2020-ci il tarixli **2003** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 4, maddə 468)**
5. 4 fevral 2021-ci il tarixli **2486** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 2, maddə 151)**
6. 23 iyul 2021-ci il tarixli **2779** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 24 iyul 2021-ci il, 151, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 7, maddə 792)**
7. 1 mart 2022-cü il tarixli **1611** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı